Yaddaş işığı

# “Əlamətdar və tarixi günlər təqvimi”

**Ölkəmizdə “Əlamətdar və tarixi günlər təqvimi” 1961-ci ildən nəşr edilir. Gərəkli vəsaitin nəşri 1992-ci ildə dayandırılsa da, 2005-ci ildən bərpa olunub. Ötən illərdə təqvim daha da təkmilləşdirilib, mövzu üzrə bölmələrin sayı artırılmaqla nəşr daha əhatəli məlumat mənbəyi kimi formalaşıb.**

Mədəniyyət Nazirliyi aparatı struktur bölmələri və bütün mədəniyyət müəssisələri üçün tövsiyə olunan təqvimdən, eyni zamanda, müəllimlər, ziyalılar və media nümayəndələri həvəslə istifadə edirlər.

Azərbaycan Milli Kitabxanasının direktoru, nəşrin baş redaktoru, Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov XQ-yə müsahibəsində bildirdi ki, kitabxanalarda, mədəniyyət müəssisələrində, teatrlarda, kütləvi informasiya vasitələrində və digər qurumlarda bu kitaba böyük tələbat var: “Böyük zəhmət bahasına başa gələn təqvimin nəşrindən əsas məqsəd geniş oxucu kütləsi və mütəxəssislərə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən ən mühüm hadisələri, kitabxana işi haqqında və başqa dəqiqləşdirilmiş məlumatları çatdırmaqdır. Builki təqvimə də milli və dünya ədəbiyyatının, incəsənətin, müxtəlif elm sahələrinin ən görkəmli nümayəndələri haqqında, milli və beynəlxalq günlər, peşə bayramları barədə mühüm məlumatlar daxil edilib”.

Kitabın baş redaktoru qeyd etdi ki, təqvimdə istifadə edilmiş məlumatların mütləq mənada mənbələri də göstərilib. O, 2024-cü il üçün nəzərdə tutulmuş təqvimin spesifik xüsusiyyətlərindən də



danışdı: “2024-cü il üçün hazırladığımız təqvimə Vətən müharibəsi zamanı həlak olmuş şəhidlərimizin hamısı barəsində məlumatlar dərc olunub. Bu kitab sanki şəhidlər barəsində salnamədir. Əvvəlki illərlə müqayisədə builki təqvimin səhifələri çoxaldılmış, məlumatlar daha da konkretləşdirilmişdir”.

Kərim Tahirov kitabın cildinin yaşıl rəngdə olmasını Prezident İlham Əliyevin sərəncamı ilə bu ilin “Yaşıl dünya naminə həmrəylik ili” olması ilə əlaqələndirdi.

***Rizvan FİKRƏTOĞLU,***
***Elşən AĞALAR (foto)***
***XQ***